*“Metafizika” Journal*
*2022, vol 5, issue 4, serial 20, pp.99-112*

**UOT:** 94.(3).
**KBT:** 63.2
**MJ №** 144

# “Nəhcul-bəlağə” əsərində Adəmin yaradılması məsələsi

**Rüfət Qarayev***

**Abstrakt.** Məqalədə Qurani- Kərim ayələri və müxtəlif araşdırmaçıların tərcümələrin istinadən Həzrəti Əli ibn Əbu Talibin kəlamları və xütbələrindən ibarət “Nəhcül bəlağə” əsərindəki Adəmin yaradılışı məsələsi tədqiq edilmişdir. Qeyd olunan məsələ ilə əlaqədar qənaətlərə nəzər salınmış və Qərb alimlərinin (J.B.Lamark, Ç.R.Darvin) tədqiqatlarına da istinad edilmişdir. Burada təkamül nəzəriyyəsi ilə bağlı bəzi individual tənqidlər də öz əksini tapmışdır. Nəticədə qeyd edilən problemin İslam dinindəki mövqeyi bir daha vurğulanmış, bu sahədə olan araşdırmaların fərqli nəticələr yaratdığı müəyyən edilmişdir.

**Açar sözlər:** Əli ibn Əbutalib (ə), “Nəhcül-Bəlağə”, Qurani-Kərim, Adəmin yaradılışı, nəzəriyyə, kainat

## 1.Giriş

Aləmlərin Rəbbi olan Allah, aləmləri və kainatı yoxdan var etdi. Hər şey Rəbbimizin təkcə “kun” - “ol” əmrindən meydana gəldi. Sonra Rəbbimiz kainatın ən üstün varlığı olan insanı yaratmaq istədi. Bu yaranış elə bir sirli varlıq idi ki, bütun aləmlər ona xatir yaranmış, bu sirlərlə dolu olan kainat onun xidməti üçün bəzədilmişdi. Rəbbimiz onu yaratmazdan öncə “xəlifəm və canişinim” deyərək xitab edir və onu yaranışın ən üstünü olaraq mələklərə göstərirdi. Bu sirli varlığın adı insan, elə ilk yaranan insanda aləmlərin və əsmanın sirrinə varis olan Adəm (ə) idi. Onun da yaranışı təkcə Rəbbin bir əmrinə bağlı idi.

* AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun dissertantı; Bakı, Azərbaycan
E-mail: rufetelekberoglu@gmail.com
https://orcid.org/0000-0003-3491-1032

**Məqaləyə istinad:** Qarayev, R. [2022] “Nəhcul-bəlağə” əsərində Adəmin yaradılması məsələsi. *“Metafizika” jurnalı, 5*(4), səh.99-112.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 19.08.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 09.09.2022*
*Çapa qəbul edilmişdir: 14.10.2022*

## 2. Quranda Adəmin yaradılışı

Uca Rəbbimiz Qurani-Kərimin bir ayəsində ilk yaranışa işarə edərək belə buyurur:

"Allah yanında İsa da (İsanın atasız dünyaya gəlişi də) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona; "Bəşər" ol! - dedi o da oldu" (1, 3, 59).

Rəbbimiz, Adəmin (ə) yaranışından öncə İblisin yaranması haqda Qurani-Kərimdə belə buyurur:

"(Cinlərin babası) Can tayfasını (və ya İblisi) daha öncə (insandan əvvəl) tüstüsüz oddan xəlq etmişdik" (1, 15/27)

Yer üzünün insanlardan əvvəlki şüurlu sakinləri cinlər idi. Yer üzündəki xəlifəlik vəzifəsini əvvəllər cinlər yerinə yetirirdi. Ancaq cinlər onlara verilən vəzifəni yerinə yetirə bilmədilər. Yer üzündə fəsad törətdilər, bir-birlərini öldürərək pozğunçuluq etdilər. Etdikləri pisliklər yaxşılıqlarını qat-qat keçincə xəlifəlik məqamından rədd edildilər. Rəbbimiz də onların yerinə yer üzünü imar edib şərəfləndirəcək yeni bir varlığı yaratmağı qərara aldı. Elə bu yaradılan varlıq da insan idi.

Uca Rəbbimiz insanı yaratmazdan öncə mələklərə xitab edərək belə buyurur:

*(Ya Muhəmməd!) "Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", - dedikdə, mələklər: "Biz sənə şükr etdiyimiz, şəninə təriflər dediyimiz və səni müqəddəs tutduğumuz halda, sən yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" - söylədilər. Allah (onlara): "Mən bildiyim şeyi siz bilmirsiniz" - buyurdu" (1, 2/30).*

Təfsir alimi Əllamə Seyyid Muhəmməd Hüseyn Təbatəbaiyə görə:

"Ayədə sözü gedən xəlifəlik Allah-təalanın xəlifəliyidir. Bəzi müfəssirlərin ehtimal irəli sürdükləri kimi insanlardan əvvəl yaşamış yer mənşəli varlıq növünün xəlifəliyi, canişinliyi deyildir. Belə iddia edilmişdir ki, bu canlı növü yox olduğu zaman Allah insanları həmin məxluqatın canişini qərar vermək, onların xəlifəsi etmək istəmişdir. Lakin belə bir iddia doğru deyildir. Çünki ayədə də keçən Allahın mələklərə cavab verməsi və Adəmə (ə) adları öyrətdiyini buyurması, yuxarıda irəli sürülən iddia ilə heç bir yöndən uyğun gəlmir. Burada diqqət çəkən məsələlərdən biri də Allah-təalanın yer üzünün xəlifəsinin fəsadlar törədəcəyi və qan tökəcəyini inkar etmir və mələklərin Onu zikr edib şəninə təriflər deməsi və müqəddəs tutmasını da təkzib etmir. Lakin Allah burada mələklərin yerinə yetirə

bilmədikləri yeni bir şeyi ortaya qoyur. Yer mənşəli bu xəlifə də üzərinə qoyulan vəzifənin öhdəsindən gəlmək iqtidarındadır. O, Allah-təaladan kamilliklər nümayiş etdirməyə və mələklərin daşıya bilməyəcəkləri sirləri daşımağa qadirdir. Onun daşıdığı bu ilahi öhdəlik fəsad törətməsi və qan tökməsi kimi əməllərin təlafını ödəmiş olur” (3, 192).

Məşhur təfsir alimi seyyid Qutba görə isə:

*“Burada yer üzündə yaranacaq insanın xəlifə olaraq yaradılması Rəbbimizin iradəsiylə baş verir. Bu yüksək iradə yeni bir varlıq olan insana yer üzünün hakimiyyətini təslim etmək istəyir. İnsan yer üzündə Allahın istəyinə uyğun şəkildə fəaliyyət göstərəcək, onun quruluş və tərkibindən istifadə edəcək, kainatın hikmətini araşdıracaq, tətqiq edəcək, torpağa bürünmüş enerji qaynaqlarını, mədənləri, cürbəcür xəzinə və cövhərləri kəşf edəcək və bütün bunları Allahın izni və yardımı ilə Onun xəlifəliyi kimi mühüm bir mövqe istiqamətində sərf edəcəkdir. Belə isə insan dediyimiz bu yeni varlığa kainatın sahib olduğu hər cür qüvvətlər, qüdrətlər, enerji qaynaqları və s. birdə birlikdə yerli-yerində bunları istifadə edib Allahın iradəsini yerinə yetirmək, gizli bir qüdrət və istedad verilmişdir. Bu geniş aləmdəki kainat nizamında insanın məqamı çox böyükdür. Bu yüksək və uca məqam ona Rəbbi tərəfindən verilmişdir”* (4, 114).

Digər bir təfsir alimi Elmalılı Məhəmməd Həmdi Yazıra görə:

“Allah mələklərə “Mən yer üzündə bir xəlifə yaradacağam” deyərkən, mələklər yer üzünün torpağından düzələrək palçıqdan yaranan insanın bir çox səlahiyyətə sahib olacağını anladılar. Və bu səlahiyyətlərə sahib olacaq biri onu gözəl şəkildə istifadə edə biləcəkmi deyə qorxuya və həyəcana qapıldılar. Uca Allah hələ bu sirli yaranışın sir və hikmətlərini mələklərə bildirmədiyi üçün mələklər: “Yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?”, Sonrada özlərinin Rəbbimizi həmd və təsbihlə şəninə tariflər söylədiklərini dedilər. Burada mələklərin məqsədi yeni yaranan varlığa etiraz və üsyan yox, Rəbbimizin bu yeni yaratdığı varlığın sir və hikmətini açıqlamasını istəməleriydi. Bununla da bərabər bir də daxillərində xəlifəliyə olan gizli istəklərini ortaya qoydular” (5, 130). Bəli mələklər uca Allahın sevib və dəyər verdiyi qullarıdır. Onlar yarandıqları gündən bəri Rəbbimizə qarşı heç vaxt itaət və ibadətdə qüsur etməmiş, Qurani-Kərimdə də buyurulduğu kimi daima Rəbbimizə həmd və təsbihlər edib uca şəninə təriflər söyləmişlər”. Mələklərin Rəbbimizdən sual etmələrinin səbəblərindən biri, yaranan varlığın yer üzü üçün yaranmasından dolayı doğurdu. Çünki

mələklər insanın yer əhli, maddi olub qəzəb və şəhvətdən mürəkkəbləşmiş, dünyanın da ziddiyyət, məhdudiyyət və narahatlıq dünyası olduğunu bilərək, həyatın davamı bu varlıqlar arasında və belə bir mühitdə istər-istəməz fəsad və qan tökməklə qurtarmasını zənn etdilər. Adəm (ə) yaranmasından əvvəl dünyaya hansısa bir varlıqların və ya cinlərin bir nəsli gəlib yer üzündə fitnə-fəsad, müharibə və qan tökməklə məşğul olub, nəticədə isə ya özləri həlak olublar, ya da mələklər onları həlak etməyə Allah tərəfindən əmr olunublar. Hətta bəzi alimlər İblisin də onlardan olmasını, həlak olduqdan sonra isə mələklərin onu səmaya doğru aparmalarını və öz aralarında ona yer vermələrini deyirlər" (6, 130). Əyyaşinin təfsirində nəql olunan bir rəvayətdə İmam Sadiq (ə) buyurur: Əgər mələklər yer üzündə fəsad törədib, qan tökən kəsləri görməsəydilər, "Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" kimi məlumata malik olmazdılar (3, 205)

Allah-təala Qurani-Kərimdə bir neçə yerdə fərqli mərhələlərlə Adəmin (ə) yaranışına diqqət çəkir. Əvvəlcə torpaqdan, (Ali-İmran 3/59) daha sonra palçıqdan, (Səcdə 32/7) süzülmüş palçıqdan, (Möminun 23/12) yapışqan palçıqdan, (Saffat 37/11) saxsı kimi bərkiyərək dəyişmiş palçıqdan, (Hicr 15/26) kömür kimi bişmiş palçıqdan (Rəhman 15/14) və sudan (Nur 24/45) yaradıldığı bildirilir. "Taha" surəsində "Sizi ondan (torpaqdan) yaratdıq (ulu baba və nənənizi möcüzəvi şəkildə vasitəsiz və birbaşa, nəslinizin digər davamçılarını isə vasitə ilə və tədricən torpaqdan yaratdıq), (öləndən sonra)ona qaytaracaq və bir daha (Qiyamətdə) ondan çıxaracağıq" (1, 20/55). Digər bir ayədə isə; "O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı"(1, 32/7); başqa bir ayədə isə uca Rəbbimiz belə buyurur: "Şübhəsiz, Biz (ilk) insanı qoxumuş palçıqdan götürülmüş quru, çiy və səs çıxaran (insan surətinə düşmüş)gildən yaratdıq". (1, 15/26) - "Və (yada sal) o zamanı (ı) ki, Rəbbin mələklərə dedi: "Şübhəsiz, Mən qoxumuş palçıqdan alınmış quru gildən bəşər yaradacağam". (1, 15/28) "Muminun" surəsində isə buyurur: "Biz həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. (Biz Adəmi torpaqdan, Adəm övladını isə süzülmüş xalis palçıqdan-nütfədən xəlq etdik.) (1, 23/12) "Saffat" surəsində isə: "İndi (Ya Peyğəmbər, bu müşriklərdən) soruş: onları yaratmaq çətindir, yoxsa Bizim (başqa) yaratdıqlarımızı? Axı Biz onları (insanların atası Adəmi) yapışqan (kimi) bir palçıqdan yaratdıq". (1, 37/11) "Adəm" sözü ərəbcədə "ədəmə" kökündən alınmış, mənası "dəri" və "cild" deməkdir. (7, 10) Digər bir mənbəədə isə: Adəm ismi "ədim" sözündən yaranmışdır. "Ədim" isə ərəbcə olaraq yaradılışda istifadə olunan "yer üzü torpağı" deməkdir (2,

53). Adəm (ə) palçıqdan yaradılmışdır. Qoxumuş (dəyişib başqa hala düşmüş) palçıqdan yaradılmışdır. Palçıqdan süzülmüş bir xülasədən yaradılmışdır. Quru palçıqdan yaradılmışdır. Şəkillənmiş palçıqdan yaradılmışdır. Mələk torpağı yer üzündən götürdükdən sonra onları bir-birinə qarışdırdı. Torpağı götürüb göyə qalxdı. Onu su ilə islatdı. Torpaq yapışqan palçıq halına gəldi. Palçıq qoxu verənədək öz halında qaldı. Uca Rəbbimiz Adəm (ə)-ı yapışqan,qara və qoxan palçıqdan yaratdı. Bu palçıq ancaq maddələri bir-birinə yapışdıqdan sonra qara və qoxan bir şəkil aldı. Allah (c.c) bu palçıqdan qüdrət əlləriylə Adəm (ə)-ı yaratdı. (8, 17) Uca Rəbbimiz Adəm (ə) yaratmaq istədiyi zaman yerə "Mən səndən bir xalq yaradacağam ki, onlardan mənə itaət edənlər də olacaq, üsyan edənlər də. Mənə itaət edənləri cənnətə salacam, Mənə üsyan edənləri isə cəhənnəmə atacağam" deyə vəhy etdi. Sonra da Cəbrayılı (ə) yerdən bir ovuc torpaq gətirməsi üçün göndərdi. Yer Cəbrayıla (ə) "Mən sənin məndən bir şey əskiltməndən, məni yaramaz hala gətirməndən Allaha sığınıram! Mən sənin məni əskiltməyini istəmirəm. Çünki Allah məndən bir xalq yaradacaq, bu xalqda Allaha asi olacaq. Allah da onlardan dolayı məni bir cəza ilə cəzalandırar!" dedi. Bundan sonra Cəbrayıl (ə) ondan bir şey götürmədən geri qayıtdı. Sonra Rəbbinə: "Ey Rəbbim yer sənə sığındığı halda onu buraxdım, onun üzərində dayanmağı, onu məcbur etməyi uyğun bilmədim" dedi: Uca Rəbbimiz bundan sonra Mikayılı (ə) göndərdi. Yer ona da Cəbrayıla (ə) söylədiyini dedi. O isə edəcəyindən dolayı Allaha sığındı. Mikayıl (ə) da ondan bir şey almadan ilahi dərgaha qayıdıb Rəbbimizə Cəbrayılın (ə) söylədiyini təkrar etdi. Bundan sonra Rəbbimiz yerə "ölüm mələyi" Əzrayıl (ə)-ı göndərdi. Yer yenə ondan alacağı şeydən dolayı Allaha sığınınca Əzrayıl (ə): "Mən də Allahın əmrini yerinə yetirməmiş geri dönməkdən Allaha sığınıram" dedi: Sonra da yer üzündən bir neçə yerdən qırmızı, ağ və qara rəng torpaqdan götürüb qarışdırdı. Beləliklə də yer üzünün torpağından yaradıldığına görə Adəmə (ə) Adəm ismi verildi.

Rəbbimiz Adəmi (ə) yaratmağa başladığı zaman, mələklər öz aralarında: "Rəbbimiz istədiyini yaratsın, "O" bizdən daha bilgili və özünün yanında bizdən daha şərəfli bir varlıq yaratmaz, həqiqətən biz o yeni yaradılandan daha bilgili və ondan daha şərəfliyik" deyərək aralarında gizlincə danışırdılar. Uca Rəbbimiz Adəmin (ə) bədənini yaradaraq onu istədiyi qədər öz halında buraxdığı müddətdə, İblis onun ətrafında fırlanmağa başlayıb, bu yeni yaradılan varlığın içərisinin boş və ona malik olmayacaq bir biçimdə yaradılmış olduğunu gördü və dedi ki, "Mən buna rahatlıqla üstün gələ bilərəm". Mələklər Adəmin (ə) ruhsuz

bədənini görəndə qorxdular. Onların arasında ən çox qorxan da elə İblis idi. İblis cəsədin yanından keçdikcə “Sən həqiqətən böyük bir iş üçün yaradılmısan” deyirdi və ayağıyla ona vurur, vurduqca da cəsəd qab kimi səs çıxarırdı. Öz-özünə: “Hər halda sən belə qab kimi səs çıxarmaq üçün deyilsən, mütləq yaradıldığın qayə və hədəf üçünsən. Əgər mən sənə hakim olsam mütləq səni həlak edəcəyəm,əgər sən mənim üzərimdə hakim olsan sənə üsyan edəcəyəm” deyirdi. İblis digər mələklərə də: “Əgər bu sizdən üstün tutularsa siz nə edərsiniz?” deyə soruşdu. Onlar da: “Biz Rəbbimizə itaət edərik” dedilər. Beləliklə, uca Rəbbimiz Adəmə (ə) ruh üfürdüyü zaman bu ruh onun bədəninin baş tərəfindən daxil oldu və cəsədin hər tərəfində əsəri görünərək qan meydana gəldi. Adəm (ə) asqırdı. Mələklər Ona: “Əlhəmdulillah” (həmd olsun Allaha) dedilər. Adəm (ə) də “Əlhəmdulillah” dedi. Digər bir rəvayətə görə isə Adəmin (ə) həmd etməsini Allah (c.c.) özü ona ilham etdi. Adəm (ə) “Əlhəmdulilləhi Rabbil aləmin” dedi. Uca Rəbbimiz də “Rəbbin sənə rəhmət etsin” buyurdu. Allah-”Ey Adəm! Mən kiməm?” deyə soruşdu. Adəm (ə) “Sən səndən başqa ilah olmayan Allahsan” dedi. Uca Rəbbimiz də “Doğru söylədin” buyurdu. (9, 22) Qurani-Kərimdə Adəmin (ə) bir anda və ya tədricən yaranması haqda açıq bir bəyan yoxdur. Bəzi hədislərdən anladığımıza görə Adəmin (ə) yaradılmasının bir anda yox, tədrici bir şəkildə olduğu, Allah (c.c) Adəmi (ə) şəkilləndirdiyi palçığın üzərindən uzun zaman keçdiyi anlaşılmaqdadır (2, 52).

**3.“Nəhcül-bəlağə” əsərində Adəm (ə)-ın yaradılışı**

Hz. Əli (ə) “Nəhcül-bəlağə” əsərində Adəmin (ə) yaradılması haqda belə buyurur:

*(Uca Allah yeri, göyü, günəşi, ayı və ulduzları yaratdıqdan) sonra daşlıq ərazidən, torpağın hamar, əkin səpinə yararlı yerindən və şoran torpaqdan bir qədər torpaq yığaraq onun üstünə təmizlənib saflaşana qədər su tökdü və bir-birinə yapışana qədər su ilə qarışdırdı. Yoğrulmuş torpaqdan ətrafları, üzvləri, birləşmələri və kəsişmələri olan surət yaratdı. Bir-birindən qopmaması üçün onu bərkitdi, möhkəmləndirib yumşaltdı, palçıq quruduqdan müəyyən zaman üçün (onu öz ixtiyarına buraxdı. Bu vaxt ona ruh və həyat verilməsi üçün zəruri idi). Sonra qurumuş palçığa can verdi, insan şəklində ayağa qaldırdı. O, dərk oluna bilənlərin idrakında istifadə üçün idrak qüvvəsinə, işlərə yiyələnmək üçün düşüncəyə, özünə xidmət göstərmək üçün əzalara, işlərində hərəkət etdirmək üçün (əl və ayaq kimi) haqla batili, dadına baxılanla qoxulanları, rənglərlə cinsləri bir-birindən ayırd etmək üçün fəhm (dərk) etməyə malik oldu.*

*(Qurumuş palçıq elə bir insan oldu ki) onun xilqəti və təbiəti müxtəlif rənglərlə qarışdı, (sümüyünün ağlığı, qanının qırmızılığı və tükünün qaralığı kimi əzasının hər bir üzvü hikmətə uyğun olaraq bir rəngdə oldu), bir-birinə bənzər şeylərə (sümük və diş kimi) biri digərinə zidd halətlərə bir-birindən ayrı təbiətlərə sahib oldu. Həmin təbiətlər bunlardan ibarətdir: istilikdən (səfra), soyuqluqdan (bəlğəm), rütubətdən(qan), quruluqdan (sovda) və (təzadlı hallar isə bunlardır) sevinc və qəm (yuxu və oyaqlıq aclıq və toxluq kimi hallar.* (10, 8; 11, 27; 12, 198; 13, 26).

Bu izahdan anlayırıq ki Adəm (ə) yer üzünün torpağından yaradılmış, Rəbbimizin qüdrət əlləri ilə yoğrulub, üzərindən xeyli bir zaman keçdikdən sonra ona ruh üfürülüb insan şəklində ayağa qaldırılmışdır. Uca Rəbbimiz “Rəhman” surəsində buyurur:

“İnsanı (Adəmi) saxsı kimi (toxunduqda səs çıxardan) quru palçıqdan O yaratdı”. (1, 55/14) Ayənin əsli belədir. “Xələqəl insanə min salsaalin kəl fəxxaar”.

Bu ayəyə təfsir alimi Elmalılı Məhəmməd Həmdi Yazır (1878-1942) belə izah verir: “Salsal” ərəbcə “səs verən”, “vurulduğu zaman dınqıldayan”, “quru- pişməmiş çiy palçığa” deyilir. “Həmə” uzun zaman su ilə yumşalıb dəyişmiş, iy verən palçığa deyilir. “Məsmun” kəlməsi ilə əlaqədar təfsir alimlərinin bir neçə fikri var:

1. Məsmun-dəyişmiş;
2. Məsmun-sürtülmüş;
3. Məsmun-tökülmüş;
4. Məsmun- bir şəkil və örnək üzərə şəkillənmiş deməkdir ki, bunun da izahında insanın özəl bir şəklə düşməsinə, özəl bir şəkildə təsvir edilmiş, xüsusi bir qəlibə tökülmüş palçıqdan meydana gəlməsinə işarə etmək olar. Əvvəlcə “salsal”, sonra isə ondan özəl bir şəkildə qəlibə tökülüb insan mayasını meydana gətirən şəkillənmiş,qara palçıq edilmiş və insan ondan gözəl bir şəkildə yaradılmışdır. Bu halda salsal su ilə qarışdırıldıqdan sonra süzülüb quru palçıq halına gəlmiş olan yer üzünün rütubətsiz və qup-quru olduğunu göstərir ki, təbiət etibarı ilə burada həyat olduğu düşünülə bilməz. Özəlliklə də Rəbbimizin burada xüsusi olaraq diqqətimizi çəkdiyi yerlərdən biri də kəlmə olaraq “salsal” sözünün ayədə yer almasıdır. Buradakı yaranışın “salsal” deyimi ilə anladılması insanın yer üzündən bir təbiət əsəri olaraq ortaya çıxmasının qeyri-mümkün olması bildirilir. Qupquru palçığın təbiəti həyata nə qədər zidd olduğu açıq şəkildə görünməkdədir. Təbiətə qalsa bunda insan və heyvan,

hətta bir otun belə bitmə imkanı yoxdur. Ancaq bu bir həqiqətdir ki, qup-quru torpaqdan insan yaradılmışdır. Bu isə uca Rəbbimizin qüdrətinin sənətinə, elm və hikmətinə açıq bir dəlildir. Təbiət öz halına buraxıldığı halda heç dəyişməməsi gərəkərkən, Allah-Təala onu yumşaldıb dəyişərək bir palçıq halına çevirmiş və palçığa sənət və hikməti ilə elə bir sünnət (ilahi qanun) vermişdir ki, bununla insan yaradıldığı üçün ilahi qanun meydana gəldiyi maya ortaya çıxmışdır. Beləliklə demək olar ki, "(hamei-məsmun)" insan toxumu olan spermadır. Həqiqətən də sperma hər mənasıyla məsmun, yəni həm dəyişən, həm sürtülmüş, həm tökülmüş, həmdə bir qanun üzərə təsvir edilmiş, (şəkillənmiş) bir palçıqdır. Bu şəkillənmiş palçığa yapışqan bir palçıq (Saffat 37/11), dayaqsız bir suyun özündən (Saffat 37/8), qarışıq bir sperma (İnsan 72/2) demək də olar. Buradakı verilən mənalar insan növünün bütün fərdlərini əhatə edə bilər. Ancaq insanın ilk fərdi olan Adəm (ə) ilk insan olduğu kimi,onun yaradıldığı o şəkillənmiş palçıqda ilk öncə onda sünnət (qanun) olmuş ilk toxumdur. Hətta Adəm (ə) belə, ilk olaraq sperma özəlliyini almış bir palçıqdan yaradılmışdır. "O insanı bir damla sudan yaratdı" (Nəhl 16/4) ifadəsi onun haqqında da keçərlidir (5, 130). Burada incə bir məsələyə də diqqət çəkərək qısa da olsa izah verməyi zəruri bildik. Əsrlərdən bəri insanların beynini, düşüncə və qəlb dünyalarını məşğul edən məsələlərdən biri də insanın Adəmdən, yoxsa meymundan yaranaraq təkamül nəticəsində insan olaraq yaranmasıdır.

## 4. İslam dini və təkamül nəzəriyyəsi

Yaradılışa inam elmi və qüdrəti sonsuz, hər şeyə gücü yetən, əzəli və əbədi bir Yaradanın qəbul edilməsi zərurətini ortaya qoyur: Bunun kimi "təkamül"ə inanmaq tam əksinə Vahid Yaradanı-Allahı inkar edərək, Onun yerinə ağılsız və şüursuz təbiət qanunlarını qəbul etməyi zəruri edir. Bu isə atom və təsadüflərin əyninə ağıl,şüur və elm libasları biçərək səbəblərin ilahlaşdırılmasına gətirib çıxarır. Allahın (c.c.) isim və sifətləri haqqında sağlam biliyə malik olmayan bir çox insanlar bir tərəfdən Allaha inandığını söyləyir,bir yandan da "Bu, təkamül nəzəriyyəsi ilə ziddiyyət təşkil etmir" düşüncəsi ilə özləri də bilmədən Allaha şərik qoşur və ateizm çuxuruna yuvarlanırlar. Təkamül nəzəriyyəsinin yayılmasında Jan Batist Lamarkın (1744-1829) və Çarlz Robert Darvinin (1809-1882) nəzəriyyələri bu bəhsin dahada geniş müzakirəsinə səbəb oldu (14, s.122). Bunu da qeyd edək ki, Darvin öz nəzəriyyəsini Lamarkın nəzəriyyələri əsasında kökləyirdi. Lamarkın nəzəriyyəsinin əsasında isə keçi ağacın aşağı budaqlarına dırmaşır, zaman keçdikcə yuxarıya doğru

istiqamətini yönəldir, bu da onun boyunun uzanmasına səbəb olaraq bir keçi bu kimi proseslər keçərək təkamül nəticəsində zürafə olur. Lakin Lamarkın bu saxta və gülünc doğuran fikirləri genetika və sitologiyanın inkişafı ilə iyirminci əsrdə rədd edildi. Lamarkdan sonra onun nəzəriyyələrinin davamçısı olaraq Darvin gəlirdi. Belə ki Darvin öz nəzəriyyələrini irəli sürməzdən əvvəl inanclı bir xiristian idi, hətta keşiş məktəbinə də getmişdi. Lakin müəyyən zaman içində təkamül düşüncəsi formalaşıb kitab halına gələndən sonra elm aləmində ciddi sarsıntılara səbəb oldu. Təkamül düşüncəsinin Avropada qəbul edilməsində və sürətlə yayılaraq elmi dairələrdə gündəmə girməsində bir neçə faktor mühüm rol oynamışdır. Hər şeydən əvvəl Darvinin istinad nöqtəsi təbiətdə müşahidə etdiyi hadisələr idi. “Beaqle” (Biql) adlı gəmi ilə uzunmüddətli səyahəti zamanı canlılar arasında müşahidə etdiyi müxtəliflik, növlərin zənginliyi və yarımnövlərdəki uyğun adaptasiyaların mükəmməlliyi onu ilk əvvəl heyrətə gətirdi. Ancaq xristianlığa zəif inamına və Allahın isim və sifətlərindən bixəbər olmasına görə bu zəngin təbiəti anlamaqda və qiymətləndirməkdə çətinlik çəkirdi. Darvinin təkamülü tam isbat etmiş nəzəriyyə şəkilində təqdim etməsi həm bugünkü müasir elmə, həmdə zəif inanclı olsada öz inanc kitabı olan İncilə hörmətsiz yanaşmasını ortaya qoyur. Belə ki o da öz müasiri Lamark kimi əsassız fikirləri ilə kütləni çaşqınlığa salır. Lamark, bir keçinin təkamül nəticəsində zürafə olduğunu dediyi halda, Darvin isə meymunun da müəyyən zaman keçidi içərisində təkamül nəticəsində insan olduğunu iddia edirdi (15, s.52). Uca Rəbbimiz isə Qurani-Kərimdə Darvin və darvinistlərə cavab olaraq belə buyurur: “Sizi tək bir nəfərdən (Adəmdən) yaradan da Odur. (Sizin üçün ) bir qərar yeri (ana bətni,ata beli və ya yer üzü), birdə bir əmanət yeri qəbir) vardır” (1, 6/93). Qurani-Kərimin digər ayələrini də diqqətinizə yetirsək, görərik ki, uca Rəbbimiz on dörd əsr öncə insanın ana bətnində neçə mərhələ keçdiyini, küləklərin gəlib yer üzündə bütün bitkiləri belə tozlandıraraq həyatın davam etməsində müstəsna rol oynadığının şahidi olarıq.

**5.Nəticə**

Təkamül nəzəriyyəsilə bağlı təkcə bunu demək kifayət edər ki, əvvəldə də dediyimiz kimi əgər insan Allaha inanıb həqiqi bir müsəlman kimi yaşayıb, babasının da meymun deyil, Adəm (ə) olduğuna inanarsa o halda Allah (c.c) sonsuz nuru olan Qurani-Kərimə tam haqqını verərək yönəlib, on dörd əsir öncə və sonrakı əsrlərdə Qurani-Kərimin cavabsız qalan ayələrinin müasir elmin açıqlamaları sayəsində də suallarına tam olaraq cavab alar və düşüncə darlığından qurtulub, özünün yer üzərində bir şah əsər olduğunun

təfəkkür zənginliyi ilə zənginləşər. Bu da onun qul olaraq yaşayıb, kamilliyə doğru istiqamətlənməsinə vəsilə olar. Uca Rəbbimiz Adəmə ruh üfürməsi haqda Qurani-Kərimin “Hicr” surəsində belə buyurur:

“Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, təzim məqsədilə) səcdə edin!”. Bundan sonra mələklər ona (təzim məqsədilə) səcdə etdilər. Təkcə İblisdən başqa! O səcdə edənlərlə birlikdə olmaqdan imtina etdi. (Allah buyurdu:) “Ey İblis! Sənə nə olub ki, səcdə edənlərlə birlikdə səcdə etmirsən?” (Şeytan)dedi: “Sənin quru və qoxumuş qara palçıqdan yaratdığın insana səcdə etmək mənə yaraşmaz!” (Adəmə səcdə etmək mənim üçün düz olmaz, çünki mən oddan yaranmışam. Od isə torpağı yandırdığına görə ondan üstündür!) (1, 15/29, 30, 31, 32, 33)

Uca Rəbbimiz Bəqərə surəsində isə belə buyurur:

(Ya Peyğəmbər!) Biz mələklərə: “Adəmə səcdə edin!” dedikdə İblisdən başqa hamısı səcdə etdi. (Yalnız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu (1, 2/34).

Uca Rəbbimiz “Əraf” surəsində İblisin təkəbbürlənməyinə, özünü Adəm (ə)-dan üstün tutub lovğalanaraq əmirə itaətsizlik etməsinə diqqət çəkərək belə buyurur:

“Sizi (babanız Adəmi) yaratdıq, sonra sizə surət verdik və mələklərə: “Adəmə səcdə edin!” dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı. Allah İblisə: “Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?” deyə buyurdu. İblis: “Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!” dedi (1, 7/11, 12).

Hz. Əli “Nəhcül-Bəlağə” əsərində İblisin Adəm (ə)-a ruh üfürdükdən sonra ilahi əmrə qarşı çıxaraq itaətsizlik etməsinə diqqət çəkərək belə buyurur:

*“Uca Allah (insanı yaratdıqdan və onu Adəm adlandırdıqdan sonra) öz əmanətini mələklərdən istəyərək onlarla bağladığı əhd-peymanı yerinə yetirmələrini, (mələklərlə bağlanan əhd-peyman, onlara verilən əmanət bu idi) Adəmə səcdə etmək üçün hazır olmalarını, onun böyüklük və əzəməti qarşısında təvazökarlıq göstərmələrini istədi. Beləliklə Allah-taala onu xəlq etdikdə Adəmə səcdə etmələrini buyurdu. Şeytandan başqa hamı səcdə etdi. Şeytan qürurlandı və lovğalandı, bədbəxtlik ona qalib gəldi, təkəbbür etdi. Oddan yaradıldığına görə özünü böyük sayaraq bir parça quru torpaqdan yaranmış Adəmi özündən aşağı sandı. Beləliklə, Allah qəzəbinin ona*

*şamil olması üçün Şeytana möhlət verdi (10,8; 11,27; 12,198; 13, 26).*

Uca Rəbbimiz Adəmi yaratdıqdan sonra Həvva nənəmizin də yaranışına diqqət çəkərək belə buyurur:

“Sizi tək bir nəfərdən (Adəmdən) xəlq edən və onunla ünsiyyət etmək (sakit, rahat olmaq) üçün özündən (qabırğasından) zövcəsini (Həvvanı) yaradan Odur.” (31. 7/189)

Burada yenə Əli (ə) əsərdə buyurur:

*“Allah-Təala Adəmə azad və xoş güzərana şərait olan məkanda yer verdi və onun məkanını (bütün hadisələrdən) amanda saxladı. Şeytandan və onun düşmənçiliyindən qorxutdu. Sonra düşməni onu aldatdı. Sonra düşməni o Həzrətin əbədi sarayda olmasının və xeyir əməl sahiblərilə ünsiyyətinin paxıllığını çəkdiyinə görə onu aldatdı, beləliklə (Adəm şeytanın vəsvəsəsinin təsirindən) öz yəqinliyini itirərək şəkk və tərəddüdə düşdü. (Qadağan olunmuş ağacın meyvəsindən yeməmək barədə) öz qərarını (Allahın əmrinə itaətdə) süstlük və səhlənkarlığa dəyişdi (və meyvədən yedi). Şadlıq və sevinc yerinə xofa və qorxuya mübtəla oldu (Şeytana aldandığını görüb öz əməlindən xəcalət çəkdi) və peşmançılığını bildirdi. Beləliklə, Haqq-təala tövbənin yolunu öyrədərək rəhmət kəlməsini ona təlim etdi və yenidən Behiştə (əvvəlcə olduğu yerə) qaytaracağına söz verdi. Sonra onu dərd, qəmli, bəla ilə dolu olan dünyaya, nəsilartırma və övladlarının doğum yerinə göndərdi”.*

Qurani-Kərimin “Taha” surəsinin 120, 121, 122-ci ayələrində buyurulduğu kimi:

“Şeytan Adəmə vəsvəsə edib (pıçıldayıb) belə dedi: “Sənə (meyvəsindən yeyəcəyin təqdirdə heç vaxt ölməyəcəyin və həmişə Cənnətdə yaşayacağın) əbədiyyət ağacını və köhnəlib xarab olmayacaq (fənaya uğramayacaq) bir mülkü göstərimmi?”, “(Adəm və Həvva) həmin ağacdan (onun meyvəsindən) yedilər və dərhal hər ikisinin ayıb yerləri göründü. Onlar (lüt bədənlərinə) cənnət ağaclarının yarpaqlarından yapışdırmağa başladılar. Beləliklə, Adəm Rəbbinin əmrindən çıxdı, amma mətləbinə yetmədi. (Adəm Rəbbinə asi oldu və yoldan çıxdı. Qadağan olunmuş ağacın meyvəsindən yemək heçdə onu Cənnətdə əbədi qalmaq arzusuna çatdırmadı, əksinə Həvva ilə birlikdə yer üzünə endirildi). Sonra Rəbbi (tövbə etdirməklə) onu seçdi (özünə yaxınlaşdırdı), tövbəsini qəbul buyurdu və doğru yola müvəffəq etdi”.

# ƏDƏBİYYAT

1.*Qurani-Kərim,* (Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov və V.M.Məmmədəliyev). Tərtibat və nəşri R.Y.Dəmirli tarixsiz.
2.Atasoy, İhsan. (2011). *Peyğəmbərlər tarixi.* Bakı: “Nəsil” və “Nurlar” nəşriyyatı.
3.Məhəmməd Hüseyn Təbatəbai, (2010). *Əl-Mizan* təfsiri (1-ci cild). Bakı: “Qələm” nəşriyyatı.
4.Seyyid Kutub, *Fizilalil-Quran* (tərcümə edənlər: Emin Saraç, Haqqı Şəngülər və Bəkir Karlığa). (13-cü cild). “Akit” nəşriyyatı tarixsiz.
5.Almalılı Həmdi Yazır, *Haq dini Quran dili* (sadələşdirənlər: Prof.Dr. İsmail Karacam və Prof.Dr. Emin İşıq), “Zaman” nəşriyyatı (1-ci cild) tarixsiz.
6.Seyyid Haşim Rəsuli Məhəllati, (2010). *Peyğəmbərlərin həyatı Adəmdən xatəmə*. Əndişeyi Hadi nəşriyyatı.
7.Mutçalı, S. (1995). *Ərəbcə-Türkcə lüğət.* “Dağarcıq” nəşriyyatı, Aralıq.
8.Aydəmir, A. *İslami Qaynaqlara görə Peyğəmbərlər.*
9.Göksal, A. *Peyğəmbərlər tarixi.*
10.Feyzul-İslam (2007). *“Nəhcül-bəlağə” İmam Əli(ə)-ın xütbə, məktub və kəlamları (tərcümə və şərh).* Bakı: “Nurlar” nəşriyyatı.
11.Abduh, M. (2010). *Nəhcül-bəlağə* (şərh və tərcümə edən: Ahmet Çelen). “Qələm”nəşriyyatı.
12.Şeyx Nasir Məkarim Şirazi, (2006). *Nəfahatul vilayə şərhun-əsriyyun-cəamiun-linəhcül-bəlağəti.* (1-ci cild), Beyrut nəşriyyatı, (hicri-1427).
13.Seyyid Abbas Əli Musəvi, (2004). *Nəhcül-Bəlağə.* Beyrut: “Darul-hidayə” nəşriyyatı, (hicri-1424).
14.Məhəmməd Əli Rzayi, (2009). *Quranın elmi ecazkarlığı.* (çevirən Maqsud Sayılov). Bakı: “Zərdablı ltd” nəşriyyatı, 122 s.
15.Sarsılmaz, A. (2010). *110 sualda yaradılış və təkamül.* Bakı: “Xəzər” nəşriyyatı, 52 s.

*“Metafizika” Journal*
***2022, vol 5, issue 4, serial 20, pp.99-112***

# К проблеме созидания Адама (на основе произведения «Нахджул балага»)

**Руфат Гараев***

**Абстракт.** В статье основываясь на аяты и различные переводы исследователей исследована проблема созидания Адама, отраженная в произведении «Нахджул балага» (Путь Красноречия), составленная на основе проповедей и изречений имама Али ибн Абу Талиба. Автором статьи также изложены личные мысли о теории Эволюции, исследованной западными философами (Ж.Б.Ламарк, Ч.Р.Дарвин). В заключении отражена позиция данной проблемы с позиции Ислама и повторно отмечены различные выводы в связи с данной задачей.

**Ключевые слова**: Али ибн Абу Талиб (а), «Нахджуль-Балага», святой Коран, созидание Адама, теория, Вселенная

## The issue of Adam's creation in “Nahj al-Balagha”

**Rufat Garayev***

**Abstract.** Among all live beings, created by the God, the human takes the most honorable place. Having created the first human, Adam (pbuh), the God ordered to the angels come to bow before him. His Excellency Imam Ali in his work "Nahj al-Balagha" specified that the human was created of the clay by the God, and the Universe for the sake of his blessing. Unfortunately, some faithless societies still do not trust in creation of the human by the God, and cannot shake off the theory of Darwinism. Nevertheless the science has already proved that this theory is not scientific, and it is just considered as the political doctrine

**Keywords:** Ali ibn Abu Talib (a), Nahj al-Balagha, holy quran, creation of Adam, theory, Universe

---

* Диссертант Института рукописей имени Мухаммада Физули НАНА; Баку Азербайджан
E-mail: rufetelekberoglu@gmail.com
https://orcid.org/0000-0003-3491-1032

**Цитировать статью:** Гараев, Р. [2022]. К проблеме созидания Адама (на основе произведения «Нахджул балага»). *Журнал «Metafizika», 5*(4), с.99-112.

***История статьи:***
*Статья поступила в редакцию: 19.08.2022*
*Отправлена на доработку: 09.09.2022*
*Принята для печати: 14.10.2022*

* Dissertation student of the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS; Baku Azerbaijan
E-mail: rufetelekberoglu@gmail.com
https://orcid.org/0000-0003-3491-1032

**To cite this article:** Garayev, R. [2022]. The issue of Adam's creation in “Nahj al-Balagha”. *“Metafizika” journal, 5*(4), pp.99-112.

***Article history:***
*Received: 19.08.2022*
*Accepted: 14.10.2022*

## REFERENCES

1.*The Holy Quran*, (Trans. from Arabic: Bunyadov, Z.M. & Mammadaliyev, V.M.). Compiled and published by Demirli, R.Y., undated. (in Azerbaijani)
2.Atasoy, Ihsan. (2011). *The history of the prophets.* Baku: “Nesil” and “Nurlar” publishing house. (in Azerbaijani)
3.Muhammad Huseyn Tabatabai, (2010). *Al-Mizan Tafsir* (Vol. 1). Baku: "Kalem" publishing house. (in Azerbaijani)
4.Seyyid Kutub, *Fizilalil-Quran* (Trans. Saraç, E., Shengüler, H., & Karliga, B.). (Vol. 13). "Akit" publishing house, undated. (in Turkish)
5.Almalili Hamdi Yazir, *The religion of the Qur'an, the religion of truth* (simplified by: Prof. Dr. Karajam, I. & Prof. Dr. Isik E.). “Zaman” publishing house (vol. 1), undated. (in Turkish)
6.Seyyid Hashim Rasuli Mahalati, (2010). *The life of the prophets from Adam to the end.* Andiseyi Hadi publishing house. (in Azerbaijani)
7.Mutchali, S. (1995). *Arabic-Turkish dictionary.* “Dagarcik” publishing house, Aralik. (in Turkish)
*8.*Aydemir, A. *Prophets According to Islamic Sources.* (in Turkish)
9.Goksal, A. *History of Prophets.* (in Turkish)
10.Faizul-Islam (2007). “*Nahjul-balagha” sermons, letters and sayings of Imam Ali (a)* (translation and commentary). Baku: "Nurlar" publishing house. (in Azerbaijani)
11.Abduh, M. (2010). *Nahjul-balaga* (commentary and translation by: Celen, A.). "Pen" publishing house. (in Azerbaijani)
12.Sheikh Nasir Makarim Shirazi, (2006). *The eloquence of the interpretation of Nafahatul Vilaya-asriyyun-jaamiun-linahjul-balagat.* (Vol. 1), Beirut publishing house, (Hijri-1427). (in Arabic)
13.Seyyid Abbas Ali Musavi, (2004). *Nakhul-Balagha.* Beirut: “Darul-hidaya” publishing house, (1424 Hijri). (in Arabic)
14.Mohammad Ali Rezayi, (2009). *The scientific wonder of the Qur'an.* (translated by Sayilov, M.). Baku: Zardabli ltd publishing house, 122 p. (in Azerbaijani)
15.Sarsilmaz, A. (2010). *Creation and evolution in 110 questions.* Baku: "Khazar" publishing house, 52 p. (in Azerbaijani)